Adımız məfkurəmizdir

17-30 mart 2020-ci il

Türküstan

www.turkustan.info

# Makedoniyalı İsgəndər və Nadir şah Əfşar:

# Tale oxşarlıqları

Araz Şəhrilinin “Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər” kitabındakı faktlar əsasında hazırlanıb

*Nadir şah Əfşar Asiyanın sonuncu böyük fatehi idi. Napoleon Bonapart özünü yeni Nadir hesab edirdi. Onu Avropanın Nadir şahı da adlandırırdılar. Deyilənə görə, İosif Stalin Nadir şahı və rus çarı İvan Qroznını özünün müəllimləri bilirdi. Bütün ətraf xalqlar və öz təbəələri Nadir şah Əfşarın qarşısında tir-tir əsirdilər. O, Rusiya, Osmanlı və Böyük Moğol imperiyalarının ən qorxulu yuxusuna çevrilmişdi. Fransız alimi, türkoloq və yezuit Lui Bazen yazır: ‘Nadir şah sanki taxt-tac üçün doğulmuşdu. Qəhrəmanlara və böyük hökmdarlara xas olan keyfiyyətləri təbiət ondan əsirgəməmişdi”. Digər fransız alimi, yezuit Pierre Bayen: ‘Nadir şah Osmanlı imperiyasının dəhşəti, Hindistanın fatehi, bütün Asiyanın hökmdarı idi”. Maraqlıdır ki, Səfəvi xanədanının hakimiyyətinə son qoymuş Nadir şah Əfşarı məhz Əhəmənilər sülaləsini süquta uğratmış Makedoniyalı İsgəndərə bənzədərək, ona Şərqin İsgəndəri ləqəbini vermişdilər. Bu iki fateh arasındakı digər oxşarlıqlara nəzər salaq:*




### 1-ci paralel:

- Əhəmənilər imperiyasının varlığına son qoymuş Makedoniyalı İsgəndər bu imperiyanın qurucusu Böyük Kirin vəfatından 174 il sonra– e.ə. 356-cı ildə anadan olmuşdur;

- Səfəvilər imperiyasının varlığına son qoymuş Nadir şah Əfşar bu imperiyanınqurucusu Şah İsmayılın vəfatından 174 il sonra– 1698-ci ildə anadan olmuşdur (digər məlumata görə, o, 1688-ci ildə, başqa bir məlumata əsasən isə, 1689-cu ildə dünyaya gəlmişdir).

### 2-ci paralel:

- Makedoniyalı İsgəndəroktyabrayında(başqa ehtimala görə, iyul ayında)anadanolmuşdur;

- Nadir şahƏfşar daoktyabr ayındaanadan olmuşdur(onun noyabrda və ya avqust ayında doğulduğunu göstərən məlumatlar da vardır).

### 3-cü paralel:

- Makedoniyalı İsgəndərin Orta Asiyayürüşüe.ə. 329-cu ildə başlamışdı. Politimet döyüşündə soğdəyanı Spitamenin başçılıq etdiyi 600 nəfər soğd süvarisi 4.000 hərbçidən ibarət güclü Makedoniyabirləşməsinidarmadağın etsə də, iki il davam etmiş inadlı mübarizədən və Spitamenin xəyanət nəticəsində həlak olmasından sonra İsgəndər Soqdiananı (Orta Asiyanın böyük bir hissəsini – indiki Özbəkistanı və Tacikistanı) fəth edə bilmişdi;

- Nadir şah Əfşarın Orta Asiyayürüşü 1740-cı ildə başlamışdı. Buxara ətrafında özbək ordusu üzərində qələbəqazanan Nadir şah Buxara xanlığını ələ keçirmişdi. Pitnak döyüşündə isə Nadir şahın elçilərini qətlə yetirmiş Xivə xanı İlbarsın 30.000 nəfərlik ordusu darmadağın edilmiş, İlbars xan əsir alınaraq edam olunmuş, beləliklə, Orta Asiyanın böyük bir hissəsi(indiki Tacikistan, Özbəkistan və Türkmənistan) Nadir şah Əfşarın nəzarəti altına keçmişdi.

### 4-cü paralel:

- Orta Asiyanın böyük bir hissəsini işğal etdikdən sonra Makedoniyalı İsgəndər şimal istiqamətində hərbi ekspansiyanı dayandırmış və saka çöllərinə (indiki Qazaxıstana)girməmişdi;

- Orta Asiyanın böyük bir hissəsini ələ keçirdikdən sonra Nadir şah Əfşar şimal istiqamətində hərbi yürüşünü dayandırmış və qazax çöllərinə (indiki Qazaxıstana) girməmişdi.

### 5-ci paralel:

- Makedoniyalı İsgəndər Əhəməni şahzadələri Statira və Parisatida ilə evlənmişdi;

- Nadir şah Əfşar Səfəvi şahzadəsi Raziya Sultanla evlənmişdi.

### 6-cı paralel:

- Əhəmənilərin sonuncu şahı V Artakserks Makedoniyalı İsgəndərin əmri ilə gələcəkdə tarixiXorasan vilayətinin mərkəzi olacaq Bəlx şəhərində (Əfqanıstanda yerləşir) qətlə yetirilmişdi;

- Səfəvilərin sonuncu şahı III Abbas Nadir şah Əfşarın oğlu Rzaqulu mirzənin əmri ilə tarixiXorasan vilayətinin Səbzivar şəhərində (İranın Xorasan-Rəzəvi ostanında yerləşir) qətlə yetirilmişdi.

### 7-ci paralel:

- Makedoniyalı İsgəndərin əmri ilə qətlə yetirilmiş V Artakserks Əhəmənilər sülaləsinin Əhəməndən başlanan birbaşa xəttinin18-ci nümayəndəsi (şahı) idi;

- Nadir şah Əfşarın oğlu Rzaqulu mirzənin əmri ilə qətlə yetirilmiş III Abbas Səfəvilər sülaləsinin Şeyx Səfi əd-Dindən başlanan birbaşa xətinin18-ci nümayəndəsi (şey

### 8-ci paralel:

- Makedoniyalı İsgəndər e.ə. 329-cu ildə Əhəmənilər sülaləsinin hakimiyyətinə son qoymuş, bundan 2 il sonra– e.ə. 327-ci ildə Hindistan yürüşünə başlamışdı;

- Nadir şah Əfşar 1736-cı ildə Səfəvilər sülaləsinin hakimiyyətinə son qoymuş, bundan 2 il sonra– 1738-ci ildə Hindistan yürüşünə başlamışdı.

### 9-cu paralel:

- Makedoniyalı İsgəndərin Hindistan yürüşü e.ə. 325-ci ilədək – 2 il davam etmişdir;

- Nadir şah Əfşarın Hindistan yürüşü 1740-cı ilədək – 2 il davam etmişdir.

### 10-cu paralel:

- Makedoniyalı İsgəndərin ruhi durumunda problemlər e.ə. 327-ci ildən başlamış, kütləvi qətllərə və cəza tədbirlərinə əl atmışdı. Bu vəziyyət çarın ölüm tarixinə – e.ə. 323-cü ilədək, 4 il davam etmişdi;

- Nadir şah Əfşarın ruhi durumunda problemlər 1743-cü ildən başlamış, kütləvi qətllərə və cəza tədbirlərinə əl atmışdı. Bu vəziyyət şahın ölüm tarixinə – 1747-ci ilədək, 4 il davam etmişdi;

### 11-ci paralel:

- Bir fərziyyəyə görə, Makedoniyalı İsgəndər e.ə. 323-cü ildə öz sərkərdəsi Antipatr tərəfindən zəhərlənərək öldürülmüşdür (başqa ehtimallara əsasən, o, təsadüfi zəhərlənmədən, sətəlcəmdən, qaraciyər sirrozundan, tif və ya malyariya xəstəliyindən vəfat etmişdir);

- Nadir şah Əfşar 1747-ci ildə özünün bir qrup sərkərdəsinin həyata keçirdiyi sui-qəsd nəticəsində qətlə yetirilmişdir.

### 12-ci paralel:

- Makedoniyalı İsgəndər e.ə. 323-cü ilin iyun ayındaölmüş və ya öldürülmüşdür;

- Nadir şah Əfşar 1747-ci ilin iyun ayındaöldürülmüşdür.

### 13-cü paralel:

- Makedoniyalı İsgəndər sonuncu Əhəməni şahları III Daranın qətlindən 7 il (e.ə. 330-cu il), V Artakserksin qətlindən isə 6 il(e.ə. 329-cu il)sonra ölmüş və ya öldürülmüşdür;

- Nadir şah Əfşar sonuncu Səfəvi şahları II Təhmasibin və III Abbasın qətlindən 7 il sonra öldürülmüşdür.

### 14-cü paralel:

- həm Makedoniyalı İsgəndərin, həm də Nadir şah Əfşarın bütün oğlanlarını onların ölümündən sonra öz yaxın adamları qətlə yetirmişdilər;

### 15-ci paralel:

- Makedoniyalı İsgəndərin qurduğu nəhəng imperiyaonun ölümündən 2 il sonra– e.ə. 321-ci ildə dağılmışdır (e.ə. 321–320-ci illərdəMakedoniyalı İsgəndərin sərkərdələri və yaxın qohumları arasında birinci vətəndaş müharibəsi baş vermiş, e.ə. 321-ci ildə bağlanmış Triparadisus sazişi ilə imperiyanın əraziləri həmin sərkərdələrin arasında bölünmüşdür);

*- Nadir şah Əfşarın qurduğu nəhəng imperiya onun ölümündən 2 il sonra– 1749-cu ildə dağılmışdır (sözügedən hadisə 1747–1748-ci illərin vətəndaş müharibəsindən və 1749-cu ildə Nadir şahın nəvəsi Şahrux şahın Mir Seyid tərəfindən devrilməsindən sonra baş vermişdir.1750-ci ildə Şahrux şah hakimiyyət başına qayıdıb 1795-ci ilədək dövlətə rəhbərlik etsə də,bu, artıq imperiya deyil, əsasən Məşhəd şəhərinivə onun ətrafını əhatə edən kiçik bir xanlıq idi).*

Bu paralellərdən bəzilərinin daxili məzmunu zahirindən daha dərindir. Məsələn, Makedoniyalı İsgəndərlə Nadir şahın aqoniya dövrünün 4 il davam etməsi... Müasirlərinin və tarixçilərin əksəriyyətinin qənaətinə görə, Nadir şahın psixoloji vəziyyəti oğlu Rzaqulu mirzəni kor etdirdikdən bir qədər sonra pisləşmiş, 1743-cü ildən etibarən özünü qabarıq şəkildə büruzə vermişdir. Nadir şahın nəhəng imperiyasının süqutu da həmin tarixdən başlamışdır. Lakin Nadirlə İsgəndərin oxşar cəhəti onların hər ikisinin tənəzzül və deqradasiya dövrünün dörd il çəkməsi deyil. Sözsüz ki, tarixlərin üst-üstə düşməsi sırf təsadüfün nəticəsidir. Nadir şahla Makedoniyalı İsgəndəri eyniləşdirən əsas cəhət isə budur ki, onların hər ikisi qanuni sülalələri məhv etmiş, proseslərin təbii axarını pozmuş, formalaşmış sistemləri dağıtmışdılar. Lakin özləri də sistemin tərkib hissəsi olduqlarına görə həmin ictimai-siyasi mühitin məhvindən sonra qalıb inkişaf edə bilməzdilər. Fərq yalnız ondadır ki, Nadir Səfəvilərin noyonu (generalı) kimi əvvəldən sistemin içində idi, İsgəndər isə III Dara üzərində qələbədən sonra özünü Asiyanın və İranın şahı elan etməklə uçub-dağılmaqda olan sistemin içinə girmişdi. O, makedoniyalıları iranlı və baktriyalı qızlarla ailə qurmağa məcbur etmiş, özü də yalnız Əhəməni şahzadələri ilə evlənmişdi. Makedoniyalı İsgəndərin dörd həyat yoldaşından Statira Əhəməni şahı III Daranın, Parisatida Əhəməni şahı III Artakserksin, Barsina Əhəməni nəslindən olan Ərtabazın, Roksana isə Əhəməni əyanı Oksiartın qızı idi. O, yaxın ətrafına, ordusuna keçmiş Əhəməni əyanlarını, zadəganlarını, iranlıları, orta asiyalıları yığmağa, sarayında Əhəməni mərasimlərini tətbiq etməyə, Şərq libasları geyinməyə başlamışdı. Beləliklə, Makedoniyalı İsgəndərin aqibətini batan gəmiyə minən adamın taleyinə də bənzətmək olar.

*Zənnimizcə, hətta sonuncu nominal Səfəvi şahlarının hakimiyyəti də fitri istedadına, cəsarətinə, liderlik keyfiyyətlərinə və xidmətlərinə rəğmən Nadir şahın hakimiyyətindən daha legitim olmuşdur. Bəlkə də Nadir şah Əfşarın özünün və sülaləsinin hakimiyyətinin uzunömürlü olmamasının səbəbi bunda idi. Səfəvilər bu hüququ 431 illik şeyxlik və şahlıqla qazanmışdılar.*

**Ələkbər Abbasov**